# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOLOJİ TƏMİZ ƏRZAQ MƏHSULLARI İSTEHSALI KOMPLEKSİNİN YARADILMASI İSTİQAMƏTLƏRİ

**Vaqif Bəyalı ATAŞOV**
Bakı Dövlət Universitetinin müəllimi,
AZ1148, Azərbaycan Respublikası,
Bakı şəhəri, Akademik Z.Xəlilov küç.33
E-mail: vagif.atashov@gmail.com

***Received:*** *15 Mai 2026* ***Revised:*** *5 June 2026* ***Accepted:*** *25 June 2026*

**UOT:** 338.33 **JEL**: Q13;J43; P48 **DOİ:**https://doi.org/10.32010/WZJP3234

**Xülasə.** Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması istiqamətlərinin araşdırılmasıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf prosesləri təhlil olunmuşdur. Postkonflikt ərazilərdə ekoloji təmiz məhsulların istehsal edilməsi imkanları baxılmışdır. İşğaldan azad olunmuş ərazilərdə ərzaq məhsullarının istehsalının genişləndirilməsi problemləri təhlil edilmişdir. Yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması perspektivləri üzrə təkliflər verilmişdir.
*Tədqiqatın metodu olaraq* təhlil, sintez, statistika və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Həmçinin müxtəlif tədqiqatçıların metodlarına baxılmış və onların elmi əsərlərinə müraciət olunmuşdur.
*Tədqiqatın nəticələri* – postkonflikt ərazilərin dirçəldilməsində, bu ərazilərdə ekoloji təmiz ərzaq məhsulları istehsal edən komplekslərin təşkili istiqamətində tədbirlərin və mexanizmlərin hazırlanmasında istifadə edilə bilər.

**Açar sözlər**: Qarabağ, Şərqi Zəngəzur, ekoloji təmiz ərzaq məhsulları, istehsal kompleksləri, postkonflikt ərazilər, ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksi, ərzaq təhlükəsizliyi.

## Giriş

Azərbaycanda kənd təsərrüfatı istehsalı ölkənin iqtisadiyyatında önəmli yer tutur və regionlarda əhalinin məşğulluğunun əsas hissəsini təmin edir. Ölkənin iqlim və təbii şəraiti müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan verir. Burada taxılçılıq, pambıqçılıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq geniş yayılıb. Son illərdə dövlət tərəfindən bu sahəyə dəstək artıb, müasir suvarma sistemləri tətbiq olunur, texnika parkı yenilənir və fermerlər üçün subsidiyalar verilir ki, bu da ümumi istehsalın artmasına təsir göstərir.

Azərbaycan zəngin kənd təsərrüfatı imkanlarına sahibdir və bu sahədə davamlı inkişaf baxımından liderliyə yüksəlmək üçün geniş potensiala malikdir. Ölkədə kənd təsərrüfatının perspektivli inkişaf istiqamətləri arasında rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi, ekoloji təmiz məhsulların ixracının artırılması və dəqiq əkinçilik üsullarının istifadəsi xüsusi yer tutur. Bu hədəflərin reallaşdırılması isə kadr hazırlığının gücləndirilməsini, müasir infrastrukturun formalaşdırılmasını və rəqabətə davamlı, ekoloji baxımdan dayanıqlı təchizat zəncirlərinin qurulmasına daha çox diqqət yetirilməsini tələb edir.

Azərbaycanda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması son illərdə

iqtisadi və ekoloji baxımdan strateji önəm daşıyan istiqamətlərdən birinə çevrilmişdir. Qlobal bazarda sağlam qidalanmaya artan tələbat, kimyəvi gübrə və pestisidlərin yaratdığı risklər barədə ictimai məlumatlılığın yüksəlməsi və iqlim dəyişikliklərinin kənd təsərrüfatına təsiri bu sahənin inkişafını daha da aktuallaşdırır. Ölkənin təbii-iqlim şəraiti, münbit torpaq ehtiyatları və kənd təsərrüfatı ənənələri bu cür komplekslərin yaradılması üçün əlverişli baza formalaşdırır, lakin bu potensialın tam reallaşdırılması sistemli yanaşma tələb edir.

Azərbaycanda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması məsələsi işğaldan azad edilmiş ərazilərin (İAEƏ) bərpası kontekstində də strateji önəm daşıyan istiqamətlərdən birinə çevrilmişdir. Bu yanaşma təkcə kənd təsərrüfatının inkişafı deyil, ölkənin "yaşıl iqtisadiyyat" modelinə keçidi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və ixrac potensialının artırılması ilə də birbaşa bağlıdır. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur regionlarının yenidən qurulması bu sahədə yeni bir mərhələ açır və həmin ərazilər müasir, ekoloji standartlara uyğun aqrar-sənaye mərkəzlərinə çevrilmək potensialına malikdir.

### İşğaldan azad olunmuş ərazilərdə ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması proseslərinin tədqiqi

Qarabağ və Şərqi Zəngəzurda iqtisadi inkişaf istiqaməti təbii resurslardan daha səmərəli istifadə olunmasına, torpaq və iqlim şəraitinə uyğun kənd təsərrüfatı məhsullarının məhsuldarlığının ildən-ilə artırılmasına yönəldilmişdir. Burada, həmçinin, bitkiçilikdə təbii enerji mənbələrindən düzgün istifadə edilməsi, eləcə də orqanik əkinçilik və heyvandarlıq məhsullarının istehsalında effektivliyin yüksəldilməsi əsas hədəflərdən biridir. Bu regionlarda ekoloji təmiz kənd təsərrüfatı istehsalı bir tərəfdən istifadə olunan resursların strukturunda, yəni üzvi gübrələrdə, əkin dövriyyəsində, təbii otlaqlarda, bioloji bitki mühafizəsi vasitələrində və s. keyfiyyət dəyişikliklərinə səbəb olur. Digər tərəfdən isə bu yanaşma ekoloji təmiz aqroekosistemlərin təbii mühitlə və orada gedən proseslərlə daha yüksək uyğunluq təşkil etməsini nəzərdə tutur [1, s.786].

Mövcud istehsal modelinin əsasən xammal yönümlü olması, emal və əlavə dəyər zəncirinin tam formalaşmaması ekoloji təmiz ərzaq məhsulları istehsalı üçün kompleks yanaşmanın zəruriliyini ortaya çıxarır. Ekoloji təmiz ərzaq istehsalı anlayışı yalnız kimyəvi gübrə və pestisidlərin minimum istifadəsi ilə məhdudlaşmır, həmçinin, torpaq və su resurslarının qorunması, biomüxtəlifliyin saxlanması, enerji səmərəliliyi və kənd təsərrüfatı tullantılarının düzgün idarə olunmasını əhatə edir ki, Qarabağ və Şərqi Zəngəzur bu baxımdan böyük üstünlüklərə malikdir. Belə ki, regionun geniş kənd təsərrüfatına yararlı torpaqları, təmiz su mənbələri və nisbətən az sənayeləşmiş ekosistemi ekoloji təmiz istehsal üçün əlverişli baza yaradır.

Ekoloji heyvandarlıq üçün isə Laçın və Kəlbəcər rayonları daha əlverişli hesab olunur. Həmin ərazilərdə geniş və təbii otlaq sahələrinin olması heyvanların təbii yem bazası ilə təmin edilməsinə şərait yaradır. Nəticədə kimyəvi əlavələrdən minimum istifadə olunan, daha keyfiyyətli və sağlam süd və ət məhsulları istehsal etmək mümkündür. Arıçılıq istiqamətində də Kəlbəcər və Laçın rayonlarının zəngin florası mühüm üstünlük hesab edilir. Müxtəlif bitki örtüyü arı məhsullarının keyfiyyətini yüksəldir və təbii bal istehsalına şərait yaradır. Belə məhsullar yerli və xarici bazarlarda yüksək rəqabət qabiliyyətinə malik ola bilər.

Qarabağ regionuna daxil olan Ağcabədi, Bərdə və Tərtər rayonları zəngin resurs imkanları ilə seçilir. Bu ərazilərdə yüksək səviyyəli aqrobiznes müəssisələrinin formalaşdırılması real və mümkün hesab olunur. Məsələn, Bərdə rayonunda heyvandarlıq sahəsinin genişləndirilməsi üçün əlverişli şərait mövcuddur, habelə, pambıq emalı istiqamətində də ciddi inkişaf potensialı var. Bu səbəbdən həmin sahələr üzrə layihələrin reallaşdırılması daha məqsədəuyğun sayılır. Tərtər rayonunda isə meyvəçilik, heyvandarlıq və baramaçılıq sahələrinin inkişafı üçün kifayət qədər resurs və imkanlar mövcuddur. Ağcabədi rayonu da öz inkişaf potensialı ilə diqqət çəkən bölgələrdən biridir [2, s.12].

Bundan əlavə, emal sənayesinin inkişafı üçün Ağdam və Füzuli rayonları əlverişli logistika imkanlarına malikdir. Kənd təsərrüfatı məhsullarının emalı əlavə dəyərin artırılmasına, yeni iş yerlərinin yaradılmasına və bölgənin iqtisadi inkişafına müsbət təsir göstərə bilər. İstixana təsərrüfatının inkişafı üçün də Ağdam və Füzuli

rayonlarının imkanları diqqət çəkir. Günəş enerjisi potensialının yüksək olması burada enerji baxımından daha səmərəli istixanaların qurulmasına şərait yaradır. Bu da ilboyu tərəvəz istehsalını mümkün edir və bazarın davamlı məhsulla təmin olunmasına kömək edir.

Qeyd edilənlər baxımından, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" üzrə infrastrukturun qurulması işlərinin daha da sürətləndirilməsi vacib hesab olunur. Bu istiqamət əhalinin həmin regionlara köçürülməsi, yeni iş imkanlarının formalaşdırılması, Böyük Qayıdış prosesinin reallaşdırılması baxımından böyük önəm daşıyır. Sözügedən regionlarda "yaşıl enerji" sahəsinin daha intensiv inkişaf etdirilməsi üçün dünyanın bu istiqamətdə qabaqcıl təcrübəyə malik ölkə və şirkətlərinin bilik və texnologiyalarından istifadə olunması təmin edilməli, bununla bağlı genişmiqyaslı və kompleks tədbirlər həyata keçirilməlidir [3, s.127]. Həmin tədbirlər Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması baxımından önəmli addım hesab olunur.

Kompleksin yaradılması istiqamətlərinə gəlincə, bu prosesə ilk olaraq, torpaq resurslarının düzgün idarə olunmasından başlanmalıdır. Uzun müddət istifadəsiz qalmış və ya müxtəlif təsirlər altında deqradasiyaya uğramış torpaqların ilkin mərhələdə ekoloji qiymətləndirilməsi, onların bərpası və sertifikatlaşdırılması vacibdir. Bu mərhələdən sonra orqanik əkinçilik zonalarının ayrılması, kimyəvi təsirlərdən uzaq istehsal sahələrinin formalaşdırılması və rotasiya sisteminə əsaslanan əkin planlaması tətbiq edilməlidir. Belə yanaşma torpağın məhsuldarlığını artırmaqla yanaşı, uzunmüddətli ekoloji sabitliyi də təmin edir.

İkinci əsas istiqamət su resurslarının idarə olunmasıdır. Regionda suvarma sistemlərinin müasir texnologiyalar əsasında qurulması, damcı suvarma və ağıllı su idarəetmə sistemlərinin tətbiqi ekoloji təmiz istehsalın əsas şərtlərindən biridir. Su ehtiyatlarının səmərəli istifadəsi məhsuldarlığı artırır, ekosistemə düşən yükü azaldır. Habelə, suyun keyfiyyətinə nəzarət mexanizmləri yaradılmalı və çirklənmənin qarşısı alınmalıdır.

Üçüncü istiqamət aqrar-sənaye inteqrasiyasıdır. Yəni, yalnız kənd təsərrüfatı məhsullarının yetişdirilməsi deyil, onların emalı, qablaşdırılması və bazara çıxarılması üçün tam istehsal zəncirinin qurulması vacibdir. Bu model əlavə dəyər yaradır, regionda məşğulluğu artırır. Qarabağ və Şərqi Zəngəzur üçün planlaşdırılan aqropark modelləri bu baxımdan önəmli rol oynaya bilər. Müasir aqroparklar daxilində heyvandarlıq kompleksləri, toxumçuluq, emal müəssisələri və logistika mərkəzləri bir arada fəaliyyət göstərərək ekoloji və iqtisadi səmərəliliyi artırır.

Dördüncü istiqamət texnologiyaların tətbiqidir. "Ağıllı kənd təsərrüfatı" sistemləri, dron monitorinqi, rəqəmsal torpaq təhlili, avtomatlaşdırılmış suvarma və məhsul izləmə sistemləri ekoloji təmiz istehsalın dayanıqlığını təmin edən əsas vasitələrdəndir. Bu texnologiyalar resurs itkisini azaldır, məhsulun keyfiyyətinə nəzarəti gücləndirir.

Beşinci mühüm istiqamət insan kapitalının inkişafıdır. Regionda ekoloji kənd təsərrüfatı üzrə ixtisaslaşmış kadrların hazırlanması, fermerlərin təlimi və innovativ biliklərin yayılması olmadan kompleksin səmərəli fəaliyyəti mümkün deyil. Yerli əhalinin bu prosesə aktiv cəlb olunması sosial-iqtisadi inkişafla yanaşı, ekoloji mədəniyyətin formalaşmasına da töhfə verir.

Ümumiyyətlə, ekoloji təmiz ərzaq istehsalı kənd əhalisi üzərində əhəmiyyətli sosial təsirlər yarada bilər. Bu sahəyə yeni başlayanlar üçün belə fəaliyyətlər, kəndlərdə iş imkanlarının artmasına səbəb ola bilər. Belə təsərrüfatların əsas üstünlüklərindən biri yeni iş yerlərinin açılmasıdır ki, bu da yüksək işsizlik səviyyəsi olan bölgələr üçün böyük bir fürsət hesab edilir. Həmçinin, iri təsərrüfatlarda ekoloji təmiz məhsulların istehsalı xərclərin azalmasına, ixrac bazarlarına çıxış imkanlarının genişlənməsinə şərait yaradır [4, s.76].

### Postkonflikt ərazilərdə ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin genişləndirilməsi yolları

Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsullarının istehsalı üzrə kompleksin yaradılması 2020-ci ilin sonlarından bu günə qədərki dövrdə dövlətin postmünaqişə bərpa və yenidənqurma siyasətinin mühüm prioritet istiqamətlərindən biri kimi çıxış edir. Bu yanaşma həmin ərazilərdə kənd təsərrüfatı potensialının müasir tələblərə uyğun şəkildə yenidən formalaşdırılmasını, torpaq və su ehtiyatlarından səmərəli istifadəni və ekoloji tarazlığın qorunmasını nəzərdə tutur. Habelə, bu strategiya regionun sosial-iqtisadi inkişafına təkan verməklə

yanaşı, "yaşıl iqtisadiyyat" modelinə keçidin sürətləndirilməsi məqsədləri ilə də sıx şəkildə əlaqələndirilir

Yaşıl iqtisadiyyat modelinin tətbiqi İAEƏ-lərdə məskunlaşan əhalinin zəruri ərzaqla təmin olunması məqsədilə bitkiçilik və heyvandarlıq sahələrində istehsalın artırılmasına daha çox diqqət yetirilməsini tələb edir. Mövcud vəziyyətdə Azərbaycanın daxili bazarında bir sıra məhsulların, xüsusilə də, qarğıdalı və günəbaxan yağı kimi ərzaqların xeyli hissəsi idxal hesabına ödənildiyindən, xarici asılılıq yüksək olaraq qalır. Bu asılılığın azaldılması və valyutanın ölkədən çıxışının minimuma endirilməsi üçün Kəlbəcər, Laçın, Qubadlı kimi rayonlarda, eləcə də Tərtər, Həkəri və digər çayların ətrafındakı münbit torpaq sahələrində qarğıdalı, günəbaxan və müxtəlif tərəvəz bitkilərinin becərilməsi məqsədəuyğundur. Beləliklə, həmin məhsullara olan daxili tələbatın yerli istehsal hesabına qarşılanması daha da yaxşılaşdırıla bilər [5, s.85].

Qarabağ və Şərqi Zəngəzurda iqtisadi fəallıq xüsusilə 2022-ci ildən sonra sürətlənib, lakin hələ də tam potensialdan uzaqdır. 2021-ci ildə İAEƏ-lərdə kənd təsərrüfatı istehsalı daha çox ilkin mərhələdə planlaşdırma və pilot layihələrlə məhdudlaşırdı. Əsas diqqət mina təmizlənməsi, torpaq islahatı və infrastrukturun qurulmasına yönəlmişdi. Bu səbəbdən real istehsal göstəriciləri minimal idi və ekoloji təmiz ərzaq istehsalı anlayışı daha çox strateji sənədlərdə əks olunurdu.

2024-cü ildə dövlət proqramları çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı və emal sənayesinin inteqrasiyası gücləndirildi, kənd təsərrüfatına investisiyalar və infrastruktur layihələri davam etdirildi. Statistik tendensiyalar göstərir ki, ümumi investisiya həcmi və iqtisadi aktivlik artmaqda davam edib, xüsusilə, Şərqi Zəngəzur nəqliyyat-logistik imkanların genişlənməsi ilə istehsal zəncirinə daha sıx inteqrasiya olunmağa başlayıb ki, bu da ekoloji təmiz məhsulların bazara çıxışını asanlaşdırıb.

2025-ci ildə artıq əsas istiqamət "tam inteqrasiya olunmuş aqro-ekoloji kompleks" modelinə keçid olmuşdur. Burada məqsəd yalnız kənd təsərrüfatı istehsalı deyil, həmçinin, emal, qablaşdırma, sertifikatlaşdırma və ixrac zəncirinin ekoloji standartlara uyğunlaşdırılmasıdır. Ən vacib tendensiya mineral gübrələrdən və kimyəvi müdaxilələrdən asılılığın azaldılması, ekoloji təmiz istehsalın genişləndirilməsi, həmçinin "ağıllı kənd" konsepsiyasının tətbiqidir.

Mövcud vəziyyətin ümumi qiymətləndirilməsi göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı artıq bərpa mərhələsindən inkişaf mərhələsinə keçid edir. Lakin bu inkişaf hələ tam sistemli və ekoloji yönümlü xarakter daşımır. Əsas risklərdən biri intensiv istehsalın ekoloji balansı pozması, digər risk isə infrastrukturun sürətli genişlənməsi fonunda təbii resurslara təzyiqin artmasıdır. Odur ki, ekoloji təmiz ərzaq istehsalı kompleksinin yaradılması yalnız iqtisadi layihə deyil, həmçinin, strateji ekoloji siyasət kimi qiymətləndirilməlidir.

Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı müəssisələrinin formalaşdırılması milli brendlərin inkişafı üçün böyük önəm daşıyır. Bu istiqamət həmin ərazilərin yenidən qurulması prosesində prioritet yanaşmalardan biri kimi qəbul edilməlidir. Qlobal bazarda ekoloji təmiz məhsullara tələbatın və onların satış qiymətinin yüksək olması belə istehsalın daha da genişləndirilməsini vacib edir [6, s.336].

Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması dövlətin rolu olmadan mümkün deyildir. Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması fonunda bu istiqamət dövlət üçün həm simvolik, həm də təcrübi baxımdan xüsusi önəm daşıyır, çünki həmin regionlarda iqtisadi həyatın yenidən dirçəldilməsi yeni inkişaf modelinin tətbiqi ilə paralel aparılır. Dövlətin rolu əsasən hüquqi və iqtisadi tənzimləmə mexanizmlərinin tətbiqi ilə bağlıdır.

Azərbaycan Respublikasında "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Qanunu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması baxımından mühüm hüquqi baza hesab etmək olar. Bu qanun həmin ərazilərdə kənd təsərrüfatının müasir, təhlükəsiz və dayanıqlı prinsiplər əsasında inkişafını stimullaşdırılmasına imkan verir [7].

Qanunun əsas rolu, ilk olaraq, ekoloji təmiz istehsalın hüquqi mexanizmlərini müəyyən etməsindədir. Burada torpaqdan istifadənin qaydaları, pestisid və kimyəvi gübrələrin məhdudlaşdırılması, təbii ehtiyatların qorunması və eko-

loji standartlara uyğun istehsal prinsipləri öz əksini tapır. Bu isə Qarabağ və Şərqi Zəngəzurda yaradılacaq aqrar komplekslərdə məhsulun keyfiyyətinə və təhlükəsizliyinə zəmanət verir. Belə məhsullar daxili və ixrac bazarlarında daha rəqabətqabiliyyətli olur.

Digər mühüm məqam qanunun ekoloji tarazlığın qorunmasına xidmət etməsidir. Azad olunmuş ərazilərdə kənd təsərrüfatının plansız inkişafı təbii resurslara zərər vura bilərdi. Lakin qanunda nəzərdə tutulan normalar torpağın münbitliyinin qorunmasını, su ehtiyatlarından səmərəli istifadəni və biomüxtəlifliyin saxlanılmasını təşviq edir. Bu isə uzunmüddətli perspektivdə regionun davamlı kənd təsərrüfatı modelinə çevrilməsinə şərait yaradır. Qanunun tətbiqi kənd yerlərində məşğulluğun artırılmasına və sosial rifahın yüksəlməsinə də təsir göstərir. Ekoloji kənd təsərrüfatı daha çox əmək tələb edən sahə olduğundan burada yeni iş yerləri yaranır, fermerlərin gəlirləri artır və kənd əhalisinin regiona qayıdışı sürətlənir. Bununla yanaşı, ekoloji təmiz istehsal aqroturizmin inkişafına da müsbət təsir edir. Qarabağ və Şərqi Zəngəzurun təbii landşaftı və təmiz mühiti bu istiqamətdə böyük potensiala malikdir.

Ümumiyyətlə, "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" qanun Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin formalaşdırılmasında hüquqi baza, keyfiyyət təminatı, ekoloji təhlükəsizlik və iqtisadi inkişaf baxımından önəmli rol oynayır. Bu qanun regionun aqrar potensialının səmərəli istifadəsinə, ekoloji dayanıqlığın qorunmasına və beynəlxalq bazarlara inteqrasiyasına geniş imkanlar yaradır.

## Nəticə

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq istehsalı kompleksinin formalaşdırılması regionun gələcək inkişaf modelini müəyyənləşdirən əsas istiqamətlərdən biridir. Bu model düzgün planlaşdırıldığı halda, Azərbaycan üçün daxili ərzaq təhlükəsizliyinin gücləndirilməsi, beynəlxalq bazarlarda rəqabət qabiliyyətli ekoloji məhsulların istehsalı baxımından mühüm üstünlüklər yarada bilər. Odur ki, Qarabağ və Şərqi Zəngəzurda ekoloji təmiz ərzaq məhsulları istehsalı kompleksinin yaradılması baxımından aşağıdakı kimi təkliflər irəli sürmək olar:

- Qarabağ və Şərqi Zəngəzurda torpaq və su ehtiyatlarının elmi əsaslarla qiymətləndirilməli və bu məqsədlə müasir laboratoriya və tədqiqat avadanlıqları ilə təchiz olunmuş milli elmi-tədqiqat mərkəzi yaradılmalı və bu mərkəz torpağın münbitliyi, su ehtiyatlarının keyfiyyəti və ekoloji risklərin davamlı monitorinqini təmin etməli;
- Ekoloji kənd təsərrüfatı məhsullarının istehsalını təşviq etmək üçün beynəlxalq standartlara uyğun sertifikatlaşdırma sistemi tətbiq edilməli, istehsalçıların bu sistemə çıxışı asanlaşdırılmalı;
- Regionda aqroparkların yaradılması ilə yanaşı, dəyər zəncirinin bütün mərhələlərini əhatə edən klaster yanaşması tətbiq edilməli, istehsal, emal və satış prosesləri inteqrasiya olunmuş sistemdə qurulmalı;
- İxrac potensialının artırılması məqsədilə beynəlxalq sertifikatlara uyğunlaşdırılmış logistika mərkəzləri, soyuducu anbarlar və nəqliyyat infrastrukturunun inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilməli;
- Rəqəmsal kənd təsərrüfatı texnologiyalarının (ağıllı suvarma sistemləri, dron monitorinqi, peyk izləmə və s.) tətbiqi dövlət dəstəyi ilə stimullaşdırılmalı, fermerlərin bu texnologiyalara çıxışı genişləndirilməli;
- Ekoloji tarazlığın qorunması üçün uzunmüddətli ekoloji monitorinq proqramları hazırlanmalı, biomüxtəlifliyin bərpası və davamlı torpaq idarəçiliyi üzrə tədbirlər sistemli şəkildə reallaşdırılmalı və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Khalilov, I.B., Jafarova, F.M. Current State of Agricultural Development in Karabakh and East Zangezur Regions of Azerbaijan and Sustainable Development Prospects. Ankara. TÜCAUM 2022. Uluslararası Coğrafya Sempozyumu. – 12-14 Ekim 2022.
2. Shirinzade, N.A., & Aliyev, Sh.T. (2023). Directions of agribusiness development in Karabakh and East Zangazur. Proceedings of the 3rd International Scientific and Practical Conference "Society and Science: Interconnection", – 16-18 November 2023. No. 178, – pp. 9-15.
3. Əliyev, Ş.T. Qarabağ iqtisadi rayonunda yaşil enerji resurslarından səmərəli istifadənin

aktual aspektləri. //“Geostrategiya” jurnalı, – Bakı, – 2024. №04 (82), – s.124 -128.

4. Allahverdiyev, E.Q. Müasir dövrdə orqanik kənd təsərrüfatının inkişafının təmin olunması problemlərinin metodoloji xüsusiyyətləri. “Kooperasiya” elmi-praktiki jurnal – 2025. №4(79), – s.75-82.

5. Əliyev, V.O. Şərqi Zəngəzur və Qarabağ İqtisadi Rayonunun istehsal - ixrac ehtiyatları və onlardan istifadənin qiymətləndirilməsi. Audit, – 2021. 4 (34), s.82-92.

6. Məmmədli, M. İşğaldan azad olunmuş ərazilərdə biznesin təşkilinin dövlət tənzimlənməsi. “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfransın materialları Ağdam-Bakı. – 16-17 sentyabr 2021. – s.334-337.

7. Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 13 iyun 2008.

## DIRECTIONS FOR CREATING AN ECOLOGICAL FOOD PRODUCTION COMPLEX IN KARABAKH AND EAST ZANGEZUR

**Vagif Bayali ATASHOV**
Teacher of Baku State University,
AZ1148, Republic of Azerbaijan, Baku city, Academician Z. Khalilov str. 33
E-mail: vagif.atashov@gmail.com

**Abstract:** The purpose of the study is to investigate the directions of creating an ecologically clean food production complex in Karabakh and East Zangezur. The development processes of the Karabakh and East Zangezur economic regions were analyzed. The possibilities of producing ecologically clean products in post-conflict areas were considered. The problems of expanding food production in the territories liberated from occupation were analyzed. Proposals were made on the prospects of creating an ecologically clean food production complex in Karabakh and East Zangezur in the near future.
*The research method* used was analysis, synthesis, statistics and generalization. The methods of various researchers were also reviewed and their scientific works were consulted.
*The results of the study* can be used in the revitalization of post-conflict areas, in the development of measures and mechanisms for the organization of complexes producing ecologically clean food products in these areas.
***Key words:*** Karabakh, East Zangezur, ecologically clean food products, production complexes, post-conflict areas, ecologically clean food products production complex, food security

# НАПРАВЛЕНИЯ СОЗДАНИЯ КОМПЛЕКСА ПО ПРОИЗВОДСТВУ ЭКОЛОГИЧЕСКИ ЧИСТОГО ПРОДУКТОВ ПИТАНИЯ В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ

**Вагиф Баяли АТАШОВ**
Преподаватель
Бакинского Государственного Университета,
AZ1148, Азербайджанская Республика,
г.Баку, Академика З. Халилова, 33
E-mail: vagif.atashov@gmail.com

**Резюме:** *Цель исследования* – изучение направлений создания комплекса по производству экологически чистого продуктов питания в Карабахе и Восточном Зангезуре. Проанализированы процессы развития экономических регионов Карабаха и Восточного Зангезура. Рассмотрены возможности производства экологически чистой продукции в постконфликтных районах. Проанализированы проблемы расширения производства продуктов питания на территориях, освобожденных от оккупации. Предложены варианты перспектив создания комплекса по производству экологически чистого продуктов питания в Карабахе и Восточном Зангезуре в ближайшем будущем.
*В исследовании использовался метод* анализа, синтеза, статистики и обобщения. Также были рассмотрены методы различных исследователей и изучены их научные работы.
*Результаты исследования* могут быть использованы для оживления постконфликтных территорий, а также для разработки мер и механизмов организации комплексов по производству экологически чистой пищевой продукции в этих районах.
**Ключевые слова:** Карабах, Восточный Зангезур, экологически чистые продукты питания, производственные комплексы, постконфликтные районы, комплекс по производству экологически чистых продуктов питания, продовольственная безопасность.